Norm MMC rəhbərliyi və şirkətin adından fəaliyyət göstərən bütün işçilər sementin mövcud tələblərə uyğun istehsalını təmin etməklə yanaşı ətraf mühitə və yaxınlıqdakı yaşayış mənteqələrinə təsirin minimuma endirilməsinə, habelə sənayedə ən mütərəqqi təcrübənin tətbiqinə görə cavabdehdirlər.

Biz sement satmaqla kifayətlənməyib məhsullarımızın istifadəsində öz müştərilərimizə dəstək göstərərək və müvafiq treninqlər təşkil edəcəyik.

Biz əlaqədar tərəflərin fikirlərinə dəyər verəcək və onların təkliflərindən davamlı inkişaf məqsədilə istifadə edəcəyik.

Rəhbərlik siyasətimizin bütün işçilərə çatdırılmasını və başa düşülməsini, habelə treninqlər vasitəsilə tətbiqini təmin edəcəkdir.

**Sağlamlıq və Təhlükəsizlik**

Təşviq və təlimlər vasitəsilə sağlamlıq və təhlükəsizlik programının davamlı sürətdə təkmilləşdirilməsi və tətbiqi.

Sağlamlıq və təhlükəsizlik proqramının səmərəli sürətdə həyata keçirilməsi üçün Bütün səviyyələrdə məsuliyyət və cavabdehliklərin müəyyən edilməsi və müvafiq idarəetmə və əlaqələndirmənin təmin edilməsi.

Sağlamlıq və Əməyin təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi ilə bağlı qanunların Bütün müddəalarına riayət edilməsi

Sağlamlıq, Əməyin mühafizəsi və Ətraf Mühitin Mühafizəsi ilə bağlı tələblərin bütün işçilər, podratçılar və qonaqlar tərəfindən tam başa düşülməsinin, tələblər yerinə yetirilmədiyi təqdirdə müvafiq tədbirlərin həyata keçirilməsinin təmin edilməsi.

İşçilərə verilən hər bir tapşırığın onların imkanı daxilində olmasının və təhlükəyə səbəb olacağı əsaslandırılmış sürətdə ehtimal edilən tapşırıqların verilməsinin təmin edilməsi.

Fövqəladə hallar üçün prosedurların işlənib hazırlanması və fövqəladə hallarda avadanlıq və qurğuların işçilərə zərər yetirməməsinin təmin edilməsi.

Peşə xəstəliklərinin yaranmaması üçün risklərin idarə olunması, bərpa proqramları və işçilərə tibbi xidmətlərin göstərilməsinin təmin edilməsi.

İş vaxtı və işdən sonra işçilərin sağlamlıq və təhlükəsizlik qaydalarına riayət etmələri üçün həvəsləndirilməsi və dəstəklənməsi.

Şirkətin qonaqları və podratçılarının sağlamlıq və təhlükəsizliyinin qoruyub saxlamaq üçün müvafiq sistemlər və prosedurların tətbiqi, qonaqların və podratçıların fəaliyyəti nəticəsində arzuedilməz hadisələrin baş verməməsinin təmin edilməsi

Təsdiqlənmiş təhlükəsizlik avadanlıqlarının və fərdi mühafizə vasitələrinin lazım gəldikdə təmin edilməsi.

**Keyfiyyət**

Şirkət rəhbərliyi və işçiləri sementin stabil və effektli sürətdə istehsal edilməsinə cavabdehdirlər.

Biz məhsullarımızın istehsalı və çatdırılması ilə bağlı tələblərə ciddi sürətdə riayət olunmasını təmin edəcəyik.

Biz texnoloji prosesin və məhsullarımızın yerli və beynalxalq standartlara uyğunluğunu təmin edəcəyik.

Biz texnoloji prosesin və keyfiyyətin yaxşılışdırılması üçün mütəmadi sürətdə qarşımıza yeni məqsəd və hədəflər qoyacaq, onların müntəzəm monitorinqini həyata keçirəcəyik.

Biz subpodratçılarımızı tələblərə uyğun seçəcək, işləri yüksək səviyyədə yerinə yetirmələri üçün onların fəaliyyətinə nəzarət edəcək və dəstək verəcəyik.

**Ətraf Mühit**

Biz fəaliyyətimizin ətraf mühitin mühafizəsi ilə bağlı müvafiq qanunvericiliyə uyğun həyata keçirilməsinin və bu sahədə davamlı inkişafı təmin edəcəyik.

Biz təbii ehtiyatlardan səmərəli istifadə edəcək, tullantıların həcmini maksimum həddədək azaldacaq, enerjiyə qənaət edəcək, atmosferə atılan zərərli maddələrin miqdarını minimuma endirəcək və ətraf mühitin mühafizəsinə ciddi yanaşan qurumlarla iş birliyi qurmağa can atacağıq.

Biz ətraf mühitin mühafizəsilə bağlı mütəmadi sürətdə qarşımıza yeni məqsəd və hədəflər qoyacaq, onların müntəzəm monitorinqini həyata keçirəcək, mütərəqqi prosesləri tədqiq və tətbiq edəcəyik.

Biz ictimaiyyətlə mütəmadi əlaqə saxlayacaq, zavodun ətraf mühitə təsiri barədə şəffaf hesabatlar verilməsini təmin edəcəyik.

Tarix: 14.12.2016

Baş İcraçı Direktor — Hasan Yalçınkaya

«NORM» Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyət — Limited Liability Company Azerbaijan Republic